# Qəbələ Rayon Təhsil Şöbəsinin müdiri Arifə Bayramovanın müəllimlərin ənənəvi sentyabr konfransında məruzəsi

(Əvvəli 2-ci səhifədə).

Son üç ildə buraxılış imtahanlarında məktəblərin göstərdiyi nəticələr əsasında reytinq cədvəlləri hazırlanmışdır.

Məktəblərin təhsil sahəsində əsas göstəricilərindən biri onların qəbul imtahanlarında göstərdikləri nəticələrdir. Keçən dərs ilinin oktyabr və noyabr aylarında məzunların ali məktəblərə qəbulunun son 5 il üzrə nəticələrinə görə reytinq cədvəlləri hazırlanmış, məzunları davamlı olaraq ali məktəblərə sənəd verməyən və ya sənəd verdiyi halda məzunları ali məktəblərə qəbul olunmayan məktəblər müəyyən olunmuş, zəif nəticələrin səbəbləri araşdırılmış, vəziyyətin düzəldilməsi istiqamətində bir sıra təkliflər müəyyənləşdirilmişdir.

Bununla yanaşı son 3 ildə ümumtəhsil məktəbləri şagirdlərinin fənn olimpiadalarında iştirakı araşdırılaraq, nəticələr təhlil edilmişdir.

Buraxılış imtahanlarının nəticələrinə görə IX və XI siniflər üçün reytinq cədvəlləri hazırlanmış, nəticələri təhsilyanı şura iclasında təhlil edilmişdir.

2017-2018-ci dərs ilində rayonun ümumtəhsil məktəblərində ayrı-ayrı fənlər üzrə təlim keyfiyyətinin yüksəldilməsi istiqamətində bir çox tədbirlər keçirilmişdir. Təhsilin birinci pilləsində , yəni ibtidai təhsil pilləsində mövcud tələblərə uyğun qaydada şagirdlərin oxu, yazı və riyazi bacarıqları öyrənilmiş, seçmə yolla məktəblərdə tədris dili, riyaziyyat, həmçinin digər fənlərin tədrisi vəziyyətinin monitorinqi aparılmış, qabaqcıl müəllimlərin məktəblərdə təqdimatları, ustad dərsləri keçirilmiş, zonalar üzrə müəllimlər arasında seminarlar, dəyirmi masalar təşkil olunmuş, məktəblərin təqdim etdiyi şagirdlərin siyahısından istifadə etməklə ayrı-ayrı fənlər üzrə rayon üzrə istedad bankı hazırlanmış, onların arasında vaxtaşırı olaraq müxtəlif bilik yarışları, müsabiqələr, kiçik olimpiadalar keçirilmiş, məktəblər üzrə keyfiyyət göstəricilərinin dinamikası öyrənilmişdir.

Valideynlərlə əməkdaşlığın gücləndirilməsi, övladlarının təlimə münasibəti və nailiyyətləri, eləcə də ümumi təhsildə baş verən yeniliklər haqda onların daha məlumatlandırılması üçün məktəblərdə valideynlər üçün “Açıq qapı” günləri keçirilmişdir. Bu da təhsil müəssisələri ilə valideynlər arasında əməkdaşlığı daha da gücləndirmiş, bu istiqamətdə valideynlərin maarifləndirilməsi işinə böyük fayda vermişdir.

Keçən dərs ilində ümumi orta təhsil pilləsində kurikulumla tədris prosesi başa çatdığından 2017-2018-ci dərs ilində X siniflərdə təlim prosesi həm təmayüllü, həm də adi siniflərdə davam etdirilmişdir. Bu məqsədlə valideynlər, pedaqoji kollektivlər, şagirdlər arasında maarifləndirmə tədbirləri keçirilmiş, IX sinif şagirdlərinin valideynlərinin hamısından tam orta təhsil pilləsində övladlarının təhsillərini hansı istiqamətdə davam etdirmələrini arzu etdikləri barəsində ərizə alınmışdır. Ərizələr əsasında 13 tam orta məktəbdə 16 kombinə edilmiş təmayüllü siniflər təşkil edilmiş, onlarda təhsil almaq üçün 345 nəfər şagird, adi sinifdə oxumaq üçün isə 838 şagird cəlb olunmuşdur.

Təhsilin təmayülləşdirilməsi istedadlı şagirdlərin daha dərin və fundamental bilik almalarına şərait yaratmışdır. Təmayüllü siniflərdə fevral-mart aylarında aparılan monitorinq nəticəsində aydın olmuşdur ki, əksər məktəblərdə təmayüllü siniflər düzgün yaradılmış, həmin siniflərə qeyd olunan istiqamətdə yalnız yüksək göstəriciləri olan şagirdlər qəbul olunmuş, dərslər məktəbin qabaqcıl müəllimlərinə həvalə edilmişdir.

Təmayüllü siniflərin hamısında təhsil şöbəsində yaradılmış komissiya tərəfindən əsas fənlərin monitorinqi aparılmışdır. Həmin siniflərdə qabaqcadan tərtib olunmuş testlər əsasında yoxlamalar keçirilmiş, nəticələr məktəblərə də çatdırılmışdır. Monitorinqin nəticələri şəhər 4 nömrəli, Vəndam qəsəbə 1 nömrəli, Tüntül, Nohurqışlaq kənd tam orta məktəblərdə daha yüksək olmuşdur.

**Hörmətli konfrans iştirakçıları!**

Müasir dövrdə ümumtəhsil məktəblərinin qarşısında duran ən ümdə vəzifə şagirdlərə dərin, fundamental, keyfiyyətli təhsil vermək, ölkəmiz üçün əsl vətəndaş yetişdirmək, təhsil alanların tələbatını sürətlə dəyişən dünya ilə uzlaşdırmaqdan ibarətdir. Bu isə hər bir müəllimin şah əsəri olan dərs prosesindən keçir. Dərs müasir informasiyaların mərkəzində dayanan, daim yaradıcılıq tələb edən təlim texnologiyalarından biridir. Rayonda təlimin texniki vasitələrindən, informasiya kommunikasiya texnologiyalarından, elektron lövhələrdən istifadə etməklə öz dərslərini yüksək təlim göstəriciləri ilə quran çoxsaylı müəllimlərimiz vardır. Biz bu gün onların adlarını müəllimlərin ali məclisinin tribunasından iftixarla çəkə bilərik.

1. Atakişiyev Fazil - Nohurqışlaq kənd tam orta məktəbin müəllimi
2. Mustafayeva Elmira - Vəndam qəsəbə 2 nömrəli tam orta məktəbin müəllimi
3. Mirzəyeva Zöhrə-Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin müəllimi
4. Bayramova Şəmsiyyə- şəhər 1 nömrəli tam orta məktəbin müəllimi
5. Cəfərova Lalə-şəhər 2 nömrəli tam orta məktəbin müəllimi.
6. Abdullayeva Leyla - şəhər 3 nömrəli tam orta məktəbin müəllimi.

Fərəhləndirici haldır ki, qabaqcıl müəllimlərimizin əksəriyyəti gənc müəllimlərdir. Belə müəllimlərin sayı onlarla deyil, yüzlərlədir. Bu da bizi cox sevindirir.

**Hörmətli konfrans iştirakçıları!**

Keçən dərs ilində müəllim və şagirdlərimiz respublika səviyyəli müxtəlif müsabiqələrdə, yarışlarda, fənn olimpiadalarında, beynəlxalq səviyyəli layihələrdə uğurla iştirak etmişlər.

Vəndam 1 nömrəli orta məktəbin xarici dil müəllimi Mədinə Qasımova TEA-proqramında iştirak etmiş, dörd mərhələli proqramın qalibi olmuş, 12 sentyabr - 30 oktyabr 2017-ci il tarixlərdə ABŞ-ın Şimali Korolina ştatının Apalaçi Universitetində təlim kurslarında iştirak etmişdir.



Şagirdlərin dərin, fundamental bilik almalarında, isdedadlı şagirdlərin üzə çıxarılmasında, həmin uşaqlarda yaradıcılıq, tədqiqatçılıq meyllərinin gücləndirilməsində fənn olimpiadaların rolu olduqca böyükdür. Buna görə də təhsil şöbəsi, ümumtəhsil məktəblərinin rəhbərləri, həmçinin rayonun qabaqcıl fənn müəllimləri bu istiqamətdəki işləri həmişə diqqət mərkəzində saxlayırlar. Görülən işlərin nəticəsidir ki, cari dərs ilində fənn olimpiadalarının rayon mərhələsində 363 nəfər, İsmayıllı şəhərində keçirilən zona mərhələsində 73 nəfər iştirak etmiş, onlardan 11 nəfəri respublika turunda iştirak etmək hüququ qazanmış və 6 nəfər şagirdimiz respublika turunun qalibi olmuşdur.

1. Quliyeva Gülsüm Seymur qızı - şəhər 3 nömrəli tam orta məktəbin XI sinif şagirdi ana dili fənni üzrə II yer - gümüş medal
2. İsmayılov Röyal İlqar oğlu - Mıxlıqovaq kənd tam orta məktəbin X sinif şagirdi - coğrafiya fənni üzrə II yer - gümüş medal
3. Tahirova Turac Eldar qızı - Həmzəli kənd tam orta məktəbin X sinif şagirdi - coğrafiya fənni üzrə III yer - bürünc medal
4. Abuşova Məleykə Vüqar qızı - Nohurqışlaq kənd tam orta məktəbin IX sinif şagirdi - coğrafiya fənni üzrə III yer - bürünc medal
5. Ağayeva Dilbər Yasər qızı - Həmzəli kənd tam orta məktəbin XI sinif şagirdi - kimya fənni üzrə III yer - bürünc medal
6. Pənahlı Sona Sənan qızı - Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin X sinif şagirdi - kimya fənni üzrə III yer - bürünc medal

Hər il olduğu kimi bu il də rayon məktəbləri arasında “Ədəbiyyat biliciləri” müsabiqəsi keçirilmişdir. Nohurqışlaq kənd tam orta məktəbin IX sinif şagirdi, fənn olimpiadalarının qalibi Abuşova Məleykə Vüqar qızı müsabiqənin rayon mərhələsinin qalibi olmuş və respublika turunda iştirak edərək həvəsləndirici mükafat qazanmışdır.

Xalqımızın ümummilli lideri ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş “Ən yaxşı təqdimat” müsabiqəsində şəhər 2 nömrəli tam orta məktəbin şagirdi Rzayeva Tünzalə Mübariz qızı rayon mərhələsinin qalibi olmuş və respublika mərhələsində iştirak etmişdir.

3 iyun 2018-ci il tarixdə Təhsil Nazirliyi tərəfindən VI-VII sinif şagirdləri arasında riyaziyyat, fizika, kimya və biologiya fənlərindən IV respublika müsabiqəsi keçirilmişdir. Rayon məktəblilərindən 11 nəfəri həmin müsabiqədə yüksək bal toplayaraq respublika mərhələsində iştirak etmək hüququ qazanmışdır.

30 iyun 2018-ci il tarixdə keçirilmiş respublika mərhələsində Mirzəbəyli kənd tam orta məktəbin VII sinif şagirdi Abdullayeva Aysu Nurlan qızı kimya fənnindən III yeri tutmuşdur.

Qeyd edək ki, fənn müsabiqələrinin nəticələrinə görə Təhsil Nazirliyi tərəfindən 17 şəhər və rayonda istedadlı uşaqlardan ibarət təmayüllü siniflər təşkil olunması na qərar verilmişdir. VII sinif riyaziyyat üzrə, VIII sinif isə təbiət elmləri üzrə olacaq. Sevindirici haldır ki, o rayonlardan biri də Qəbələ rayonudur.

Bu il ilk dəfə olaraq respublika UGİM-nin xətti ilə uşaqlar arasında “Ana yurdum Azərbaycan” adlı dram müsabiqəsi keçirildi. Müsabiqənin final mərhələsi rayonumuzda təşkil olundu. 7 rayondan olan məktəblilərin iştirak etdiyi bu turda Qəbələ UGİM-nin dərnək üzvləri I yerə layiq görüldülər.

Azərbaycan Respublikası TN və FHN-nin birgə keçirdiyi “Fövqəladə hallar uşaq və gənclərin gözü ilə” yaradıcılıq müsabiqəsində aviamodel dərnəyinin üzvü Rəşad Qasımov I yer tutaraq diplom və hədiyyələrlə təltif edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş “Ölkəmin rəqs çələngi” respublika rəqs festivalında Milli nominasiya üzrə UGİM-in “Təbəssüm” rəqs qrupu II yerə layiq görülmüş, kubok və diplomlarla təltif edilmişdir.

Tədris ili ərzində UGİŞM müxtəlif nominasiyalı idman yarışları keçirmiş, fərqlənən şagirdlər təhsil şöbəsinin diplomları ilə təltif olunmuşlar. Əmirvan kənd tam orta məktəbinin VIII sinif şagirdi cudo üzrə Rusiya, Azərbaycan, Ermənistan, Gürcüstan idmançılarının iştirak etdiyi Tbilisidə keçirilən Beynəlxalq yarışda II yeri tutmuş, gümüş medal almışdır. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə, ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş şahmat, tennis, voleybol oyunları, güləş yarışları keçirilmişdir.

Şagirdlərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasında hərbi-idman oyunlarının keçirilməsinin böyük rolu var. Bu baxımdan “Şahin”, “Sərhədçi”, “Gənc xilasedici” müsabiqələri xüsusi əhəmiyyət daşıyır. Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin komandası “Sərhədçi” hərbi- idman oyunun zona turunun qalibi olmuş, Astara şəhərində 15 gün müddətində keçirilən gərgin yarışlarda respublika birinciliyində 5-ci yeri tutmuşlar.

Tədris ili ərzində gənclərin çağırışaqədərki hərbi hazırlığı dərslərinin tədrisinə, məktəb hərbi rəhbərlərinin tərkibinin yenilənməsinə diqqət və nəzarət gücləndirilmişdir.

17-23 iyul 2018-ci il tarixində “Təhsil Avtobusu-2018” Yay məktəbində iştirakçı rayonlardan biri də Qəbələ oldu. Cığatelli kənd tam orta və Seyidqışlaq ümumi orta məktəblərin 7-8-9 sinif şagirdləri “Asan xidmət” mərkəzində təlimlərdən keçmiş, təhsil proqramı və komanda-öyrədici oyunların iştirakçısı olmuşlar.

“Təhsildə keyfiyyət ili” çərçivəsində ilk dəfə təşkil olunmuş pedaqoji mühazirədə rayonumuzun müəllimləri də fəal iştirak etmişlər. Rayon üzrə seçim mərhələsində 30-a yaxın pedaqoji işçi iştirak etmiş, komissiya tərəfindən dinləmələrdən və müzakirələrdən sonra innovativ xarakterə, ciddi təcrübi əhəmiyyətə malik olan iki məruzə söbənin təqdimat məktubu ilə ölkə üzrə təşkilat komitəsinə təqdim olunmuşdur. Fərəhləndirici haldır ki, respublika təşkilat komitəsinə təqdim olunmuş hər iki məruzə müsabiqənin qalibi olmuş və müəllimlər rəğbətləndirilmişlər.

Mirzəyeva Zöhrə Məzahir qızı (Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin riyaziyyat müəllimi) pedaqoji mühazirələrdə 1-ci yeri,

Ağayeva Fərqanə Rüfət qızı (Zalam kənd tam orta məktəbin tarix müəllimi) pedaqoji mühazirələrdə 2-ci yeri qazanmışdır.

**Hörmətli konfrans iştirakçıları!**

“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda müəyyən edilmiş hədəflər baxımından ümumi təhsilin müasir tələblər səviyyəsində səriştəli idarə olunması və keyfiyyətin yüksədilməsi sahəsində təcrübə mübadilələrinin mühüm rolunu və əhəmiyyətini nəzərə alaraq, yerli təhsil idarəetmə orqanları, ümumtəhsil məktəblərinin müəllim və şagirdləri arasında qarşılıqlı etimada əsaslanan pedaqoji əməkdaşlıq əlaqələrinin yaradılmasi məqsədilə Təhsil Nazirliyinin 5 yanvar 2018-ci tarixli 21 nömrəli əmri imzalanmışdır. Həmin əmrə əsasən Qəbələ-Oğuz rayonları arasında pedaqoji əməkdaşlıq əlaqələrinin yaradılması məqsədəuyğun hesab

(Ardı 4-cü səhifədə).